# Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT İnsan Hüquqları Şurasının 49-cu iclasında çıxış edib

Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi öz fəaliyyətini uğurla davam etdirir. Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində keçirilən iclasında dünyanın ən böyük bəlalarından biri olan koronavirus pandemiyası ilə mübarizədən danışaraq, qlobal probleme çevrilən vaksinlərin ədalətsiz bölgüsü məsələsinə dünyanın diqqətini çəkdi. Məhz bundan sonra BMT-nin vaksinlərin ədalətsiz bölgüsü ilə bağlı qətnaməsi qəbul edildi.

Bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT İnsan Hüquqları Şurasının 49-cu iclasında söyləyib.

Nazir qeyd edib ki, ölkəmiz iqtisadi cəhətdən kasıb ölkələrə də yardımını əsirgəməyib.



Azərbaycanın qonşu ölkələrlə sülh və təhlükəsizlik şəraitində yaşamağa üstünlük verdiyini diqqətə çatdıran nazir bunun bölgənin təhlükəsizliyi və region ölkələrinin inkişafı üçün vacib olduğunu vurğulayıb.

***

"Azərbaycanda bütün sahələr üzrə islahatlar həyata keçirilir. Ölkəmiz postmüharibə dövrünə qədəm qoyub və işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulması Azərbaycan dövlətinin prioritetlərindəndir".

Bu fikirləri xarici işlər naziri Ceyhun Bayramov BMT İnsan Hüquqları Şurasının 49-cu iclasında bildirib.

Nazir vurğulayıb ki, məqsəd Azərbaycanı ekoloji cəhətdən təmiz, yaşıl ölkəyə çevirməkdir. İşğaldan azad edilmiş ərazilərdə infrastruktur yenidən qurulur, "ağıllı" kəndlər, şəhərlər, parklar salınır.

*AZƏRTAC*

Azərbaycan.- 2022.- 3 mart.- S.3.